Bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.2-ci maddəsinin tələbinə əsasən, seçki məntəqələri müvafiq dairə seçki komissiyaları tərəfindən müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə qurumu ilə razılaşdırılmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi, yerli və digər şərait nəzərə alınmaqla yaradılır.

Məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılması zərurətini yaratmışdır.

Bununla əlaqədar 120 saylı Cəbrayıl – Qubadlı, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa – Ağdam – Xocalı – Xocavənd və 125 saylı Zəngilan – Qubadlı seçki dairələrinin hüdudları daxilində əlavə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının yaradılması müvafiq dairə seçki komissiyalarına həvalə edilməlidir.

Qeyd edilənlərə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 17.6.19-cu, 19.4-cü, 28.4-cü və 35-ci maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. 120 saylı Cəbrayıl – Qubadlı, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa – Ağdam – Xocalı – Xocavənd və 125 saylı Zəngilan – Qubadlı seçki dairələrinin hüdudları daxilində qanunvericiliyin tələbləri nəzərə alınmaqla əlavə seçki məntəqələrinin yaradılması və yeni məntəqə seçki komissiyalarının qısa müddət ərzində formalaşdırılması müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |